# AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRİNİN
# ƏMRİ

AZ-1008, Bakı şəh., Xətai prospekti, 49. Tel.. 496-06-47

№ 1519. «09» 09. 2011 il

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7.09.2011-ci il tarixli, 143 nömrəli qərarının icrası barədə**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 sentyabr 2011-ci il tarixli. 143 nömrəli qərarını elan edirəm:

**"Azərbaycan Respublikasının Nazirlər Kabineti**
**QƏRAR № 143**

Bakı şəhəri, 7 sentyabr 2011-ci il

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 14 dekabr tarixli 235 nömrəli qərarı ilə təsdiq edilmiş "Doktoranturalar yaradılan Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin və elmi təşkilatların Siyahısı"nda dəyişikliklər edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasına əsasən, Azərbaycan Milli Elmlər Akademiyasının və Azərbaycan Respublikası Təhsil Nazirliyinin təkliflərini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 14 dekabr tarixli 235 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, №12, maddə 1117) ilə təsdiq edilmiş "Doktoranturalar yaradılan Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin və elmi təşkilatların Siyahısı"nın "Azərbaycan Respublikasının Təhsil Nazirliyi üzrə" bölməsinə aşağıdakı redaksiyada 26-cı və 27-ci hissələr əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 26. | Qərb Universiteti | fəlsəfə doktoru üzrə | - |
| 27. | Azərbaycan Dövlət Neft Akademiyasının nəzdindəki "Neftin, qazın geotexnoloji problemləri və kimya" Elmi-Tədqiqat İnstitutu | fəlsəfə doktoru üzrə | elmlər doktoru üzrə |

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının**
**Baş naziri**

**A. Rasi-zadə"**

Qərarın icrasını təmin etmək məqsədilə

**ƏMR EDİRƏM:**

1. "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 14 dekabr tarixli 235 nömrəli qərarı ilə təsdiq edilmiş "Doktoranturalar yaradılan Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin və elmi təşkilatların Siyahısı"nda dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 sentyabr 2011-ci il tarixli, 143 nömrəli qərarı rəhbərlik və icra üçün qəbul edilsin.

2. Təhsil Nazirliyinin Elm (G.Hüseynova) və İqtisadiyyat şöbələri bu əmrdən irəli gələn məsələləri həll etsin.

3. İctimaiyyətlə əlaqə şöbəsi (B.Hüseynzadə) əmrin nazirliyin "web" saytında yerləşdirilməsini təmin etsin.

4. Əmrin icrasına nəzarət təhsil nazirinin müavini İ.Hüseynovaya həvalə edilsin.

ƏSLİ İLƏ DÜZDÜR

**Misir Mərdanov**